Hörmətlə,

*İbrahim Bubakar Keyta*
*Mali Respublikasının Prezidenti*

# Xarici siyasətimizin əsas istiqaməti Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir

***❐ Azərbaycan dövlətinin xarici siyasətində Dağlıq Qarabağ münaqişəsinin əsas istiqamət olduğunu sübut edən faktları Prezident İlham Əliyevin istənilən çıxış və bəyanatlarında görürük. Dövlət başçımızın ötən ayın son günlərində reallaşdırdığı Polşa səfəri də bu baxımdan istisna təşkil etmədi. İyunun 27-də Polşa Prezidenti Andjey Duda ilə birlikdə mətbuat üçün bəyanatla çıxış edən Azərbaycan Prezidenti dedi: "Prezident qeyd etdiyi kimi, bu gün bir çox önəmli sənədlər imzalanmışdır. Bu sənədlər əməkdaşlığımızın perspektivlərini müəyyən edir. Mən onların arasında əlbəttə ki, prezidentlər tərəfindən imzalanmış strateji tərəfdaşlığa və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir. Bu bəyannamə əlaqələrimizin demək olar ki, bütün istiqamətlərini, həmçinin siyasi, iqtisadi, enerji, nəqliyyat məsələlərini ehtiva edir. Bu bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da deyilir və göstərilir ki, bu münaqişə ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır".***



Dövlət başçımızın bu istiqamətdəki fəaliyyəti barədə söz açarkən əvvəlcə türk dünyasının müxtəlif qütblərini təmsil edən iki qələm sahibinin fikirlərini yada salmaq istəyirəm. Birinci, Qırğızıstan Dövlət Teleradio Şirkəti sədrinin müavini Kayrat İmanəliyevlə söhbətimiz zamanı o, demişdi ki, Dağlıq Qarabağ münaqişəsinin Prezident İlham Əliyev üçün bir nömrəli məsələ olduğunu deməyə ehtiyac yoxdur. Çünki Azərbaycan Prezidenti nəinki siyasi-diplomatik görüşlərdə və ya beynəlxalq tədbirlərin tribunalarından çıxış edərkən, hətta, elm, təhsil, mədəniyyət, səhiyyə, idman və digər sahələrə aid söhbətlərdə belə mütləq Dağlıq Qarabağ münaqişəsindən söz açır və həmin problemin ədalətli şəkildə həll ediləcəyi barədə qətiyyətlə danışır. İkinci fikirin müəllifi isə türkiyəli ədəbiyyat tədqiqatçısı, şair-publisist, Ankara Milli Təhsil İdarəsinin əməkdaşı, Azərbaycan xalqının ən sədaqətli dostlarından olan Osman Baş idi. Osman bəy dövlət başçımızın ötən ilin sonunda Lələtəpəyə, bu il Qurtuluş Günü ərəfəsində isə Cocuq Mərcanlıya etdiyi səfərlərinə işarə edərək yazmışdır: " Ermənilər Prezident Əliyevin Dağlıq Qarabağ məsələsindəki qətiyyətini Lələtəpədə və Cocuq Mərcanlıda gördülər".

Bu məqamda Prezidentin Cocuq Mərcanlıda söylədiyi başqa bir fikiri də yada salmaq yerinə düşür: "Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq". Tam qətiyyətlə deyə bilərik ki, İlham Əliyev bu qətiyyəti təkcə Prezident seçildikdən sonra deyil, eləcə də Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri olarkən və ondan əvvəl də dönə-dönə nümayiş etdirirdi. Həmin qənaətimizi əsaslandırmaq üçün dövlət başçımızın müxtəlif tarixlərdə eşitdiyimiz iki çıxışdan sitat seçmişik.

Yəqin ki, hamının yadındadır. BMT Təhlükəsizlik Şurasının Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçən "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusundakı iclasında dövlət başçımız dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsi kimi problemlərin həllində əlbir fəaliyyət göstərməyə çağırmışdı: "Əminəm ki, terrorçuluğa qarşı mübarizənin aparılması işində bütün səylərimizi birləşdirməliyik. Terrorçuluğun hazırkı siması və onun beynəlxalq sülh və sabitliyə təhlükə olan digər hədələrlə bağlılığı dövlətlər arasında daha sıx əməkdaşlığı, o cümlədən BMT-nin daha yaxşı, əlaqələndirilmiş, ahəngdar və sistemli yanaşmasını tələb edir. Bununla belə, dövlətlər arasında münaqişələrin olması, xarici




etibarilə daha yeni olan başqa bir nitqə diqqət yetirək. Fikrimizcə, dövlətimizin xarici siyasətində Dağlıq Qarabağ münaqişəsinin əsas istiqamətlərdən biri olduğunu söyləməkdən ötrü dövlət başçımızın bu il mayın 26-da "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika

etmək istəyən ölkələrin sayı artır. Ermənistandan başqa heç bir ölkə ilə ikitərəfli formatda bizim problemimiz yoxdur. Biz bir çox üçtərəfli əməkdaşlıq formatları irəli sürdük. Bu gün bizim beynəlxalq təşkilatlarla da çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq. Mən onların içərisində, ilk növbədə, İslam Əməkdaşlıq Təşkilatını qeyd etmək istərdim. Azərbaycan bu təşkilatın fəal üzvüdür. Bu təşkilat erməni təcavüzü ilə bağlı keçən il Kontakt Qrupu yaratmışdır. Erməni təcavüzü, ötən ilin aprel ayında onların törətdikləri təxribat hadisələri İslam Əməkdaşıq Təşkilatı tərəfindən pislənildi. Azərbaycan dövlətinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinə daim dəstək

yü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpağımızda yaradılıbdır. Biz yaxşı bilirik ki, 1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Ona görə, torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd–şərtsiz çıxarılmalıdır".

Dünya ictimaiyyətinin Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətinin Bakıda və İrəvanda yaranan əks-sədası da Prezidentin nitqində özünəməxsus yer tuturdu: "Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səslənən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmır. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olmalıdır. Əgər Ermənistana bu işğalçı siyasətinə görə sanksiyalar tətbiq edilməsə, bu, ikili standartların növbəti əlaməti olacaqdır. Buna baxmayaraq, belə bəyanatların özü də hesab edirəm ki, müsbət addımdır".

İşğalçı Ermənistanın mövcud status-kvonu qoruyub saxlamaq və danışıqlar prosesindən yayınmaq istəyinə münasibət bildirən Prezident xatırlatdı ki, biz heç zaman öz prinsipial mövqeyimizdən çəkinməyəcəyik: " Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum"a çox sərt reaksiya verildi, həm qonşu ölkələr tərəfindən, həm Minsk qrupundan, həm Avropa İttifaqından və digər ölkələrdən. Heç kim bu qondarma yığıncağı, bu biabırçılığı qəbul etmədi, əksinə bunu pislədi. Bir daha sübut etdilər və göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, ölkəmizin ayrılmaz hissəsidir. Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik".

Dağlıq Qarabağ münaqişəsinin xarici siyasətimizdə tutduğu yer barədə fikirlərimizi yekunlaşdırmaq üçün cənab Prezidentin yazının mətnində verilmiş iki cümləsini sonda mütləq təkrarlamaq zərurəti hiss olunur: "Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq". İkinci cümlə isə belə idi: "Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik".

Dövlət başçımızın həmin qətiyyətinin nəticələrini artıq ölkəmizdə, regionda, eləcə də bütün dünyada hamı görür və eşidir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***